# KEÇMİŞDƏN GƏLƏN SƏSLƏR

***Sona Xəyal***
*böyük elmi işçi*
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş. İstiqlaliyyət küç.26.*

## ƏBDÜRRƏHİM BƏY HAQVERDİYEVİN MƏKTUBLARI

Görkəmli Azərbaycan yazıçısı, Əməkdar incəsənət xadimi Əbdürrəhimbəy Haqverdiyev (1870-1933) həm sağlığında, həm də vəfatından sonra nasir, dramaturq, ədəbiyyatşünas, ictimai xadim, pedaqoq kimi sevilmiş, onun Azərbaycan mədəniyyəti tarixində bir vətənpərvər kimi göstərdiyi misilsiz xidmətləri daim qiymətləndirilmişdir. Təsadüfi deyildir ki, bu il Ə.Haqverdiyevin 150 illik yubileyinin YUNESKO xətti ilə qeyd olunması qərara alınmışdır. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına əsasən bir çox elm və təhsil ocaqlarında yazıçının yubiley tədbirlərinin keçirilməsi və onunla bağlı kitabların çap olunması nəzərdə tutulmuşdur.

Ə.Haqverdiyevin şəxsi arxivi AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda şəxsi fondlar bölümündə saxlanılır (Fond N-9). Arxivdə yazıçının oxuculara məlum olan məşhur əsərlərindən başqa, bu zamana kimi çap olunmamış əsərləri də vardır. Onun avtoqrafları içərisində müxtəlif şəxslərə yazdığı məktublar daha çox diqqəti cəlb edir. Həmin məktublardan üçünü təqdim edirik.

Fond 9, s/v 49
***Möhsün Sənaniyə***

Qardaşım Möhsin.

Neçə vəqt bundan əqdəm görişdikdə, Maxaçqalada mənim əsərlərimin, hər pyesimin oynanıb və oynanacağının xəbərini söylərdin. Sizdən bəradəranə xahiş budur ki: mənim əsərlərimdən hankisi və hanki ayda və gündə oynanılmış isə yazub tezlik ilə bana xəbər verəsən. Bundan tolayı məni xeyli məmnun edərsiniz.

Qardaşlıq səlamilə
Əbdürrəhim Haqverdiyof.

Adresim:
Baku, Aziatskaya ul. d. N-69
A.Axverdovu.

***

Fond 9, s/v 53
***Mütaən***

Kağəzi-pürfövş və məzəmmətamiziniz gəldi, vüsul oldi. Əmma çox fikr edürəm, bilməyürəm bu gunə kağızi, səbəb nə olubdur ki, yazubsınız. Məni neçə barədə müqəssir edirsiniz. Həmidin sizilə bədrəftar olmağının bana nə dəxli var. Qarapet pul vermiyür, mən nə təqsirin sahibiyəm. Ələlxüsus, kədurət söhbətindən mən bir şey başə düşə bilmədim. Səbəb nə ola bilər ki, mən siz ilə kədər bağlayam. Xülasə budur, on ildən ziyadədir ki, mən siz ilə irsal-mərsul edirəm. Bu tövr kağız mən sizdən görməmişəm. Əgər sizin qolınız kağızın altındə olmasə idi, mən bilmərrə inanmaz idim ki, kağızi siz yazubsınız. Siz yazursınız ki, bana on yançə kağız yazubsınız. Yenə məndə təqsir yoxdur ki, siz Əhməd kimi sövdayi adamlərə kağız yazubsınız. Mən Tükəzbanın həkimi barəsində gələn kağızi budur üç-dört gündür almışam. Qalan kağızlərin başınə nə iş gəlüb, Allah bilsün. Niyə siz mənim öz adresimə yazmayursınız? Mən sizə xaç praznigindən irəli kağız yazmışdım, mənzilə də beh vermişdim. Ama praznik keçdi, ayın igirmisi keçdi, sizdən kağız gəlmədi. Beh də əldən çıxdi, mənzil də. İndi də ayrı mənzil axtaruram, tapam, ya yox. Bana kağız yazsanız, genə öz adresimə yazarsınız. Mənim də bir xasiyyətim var, bilürəm də pis xasiyyətdir. Yazduqım kağızə cəvab almamış, dübarə kağız yazmaram. Bu ayın igirmisinədək mənzil tapdum, fəbiha əgər tapmasam, xərclik göndərəcəgəm, inşaəllah. İndiyədək xərclik göndərməmişəm. Çünki, libasım yox idi, özimə palton və libas aldım. Bir dünya pulım çıxdi. Bir də Qarapetə xatircəm olmışdım. İndi də xəbər çıxır ki, pul verməyüb. Təvəqqe edirəm, yazasınız görüm o barədə sizə vəkalətnamə göndərim, ya Həsənəli dadaşə ki, Qarapetdən ərizə verüb, iddia etsün. Mənim işlərim buradə, Allahə şükür, pis geçməyür. Günbəgün də hörmətim artur. Bu də mənim gələcək tədbirlərimdən ötrü vacib. Ancəq, təklik məni çox incidir. Bir yandan da bir parə adəmlər evi götürməgi məsləhət görməyürlər. Deyürlər, üç aydan ötri xərc çəkməgin mənasi yoxdır. Bilməyürəm nə eləyüm. Xülasə, bana ğəzəbiniz dutmasun. Təqsiri özinizdə görin ki, səvadli adəmlərə kağız yazasınız. Tükəzbanə bir dəst paltarlıq parçə sabah göndərəcəgəm, poçt ilə alasınız. Zəlzələ Badkubədə həm oldi, ancəq mənim xəbərim olmadi. Çünki, kuçədə idim. Bir də gördim hami dükanlərdən adəmlər çıxub qaçırlar. Əmma həman gün Şəmaxi yerilə batub, iki mindən artuq adəm ölüb. Yerdə qalani ac, susuz qalubdır düzlərdə. Buradə bərk pul yığurlar. Haci beş min verdi. Əmiri-Buxara üç min və sair adəmlər də çox pul gəlür. Padşah da hökm edüb əlli min mənat versünlər. Xülasə, Rusiyədə Şəmaxi adlu şəhər tahi yoxdır. Müfəssələn, "Qəsbi" nömrələrində oxuyə bilürsiniz.

Baqi vəssəlam.
Müxlisi-şoma Əbdürrəhim.

Adres: Baku Podenovskaya ul. d. N-98.

***

Fond 9, s/v 53
***Mütaən***

Gəncə
29 yanvar

Əvvəla səlamət olasınız. Və saniyən Badkubədən qayıdandan iki gün sonrə ev sahibinin oğli sizin bir pürğəm kağızınızi bana verdi. And olsun Allahə, kağızın yarısından sonrə oqiyə bilmədim. Mən Badkubədə bir belə əhval eşitdim. Sonrə bana dedilər ki, bu Məlik Həqnəzərov Yusifdir və mən də bu fikirdə indiyədək qalmışdım. Sonrə əhvalati Süleyman götürdi Badkubəyə. Vallah əlimdə qələm işləməyür. Bilməyürəm nə yazdum. Bu nə müsibətdir, bir-birinin dalıncə biz bədbəxtlərin üstünə Allah tökür. Bir yandan Həsənəli dadaş, bir yandan bu biçarə, bir yandan gözəl Mahmənzər, nə deyüm, yəni məsləhət belədir. Mən özim istəyürdim məhərrəmdən, yəni Aşuradən sonrə Ağdamə gəlüm. Sizin kağızınıza görə gərək novruzədək qalam və uşaqlarə də demişdim ki, bayramdan sonrə sizi aparacağam Ağdamə gəzməgə. İndi bir yandan da Tükəzbanın qorqisi düşüb canımə, onun yazuq əmusinə, dayısinə və cəmi qövmlərinə olan məhəbbətini siz bilürsiniz. İidi mən bilməyürəm, o binəva gəlüb əhvalati görəndə nə tövr olacaq. Mən də burada ona heç bir zad deyə bilməyəcəgəm. Qalmışam labüd, çox qorxuram. Yaxşı olardı ki, bayramdan sonrə siz də gələydiniz. Ta bənim uşaqları Ağdamə aparaq. Cəhan nənənin halətini hər bir fikrimə götürdikcə, and olsun Allahə, cigərim qanilə dolur. Neçə il zəhmətini çəkdigi, götürüb yetürdigi balası əlindən getsün. Vallah, adam az qalur kafir ola, səbb edə. Genə siz oni bir tövr sakit edə bilərsiniz. Ama siz yenə sakit edəcəksiniz, mən belə fikr edürəm ki, uşaqlar Ağdama gəlincə binəva övrət aram durmayacaq. Bağışlayın. Vallah, əlim qələm dutmayur. Ürəgim doludur. Ürəgimdəkini təğririm götürməyür. İş barəsində sabah sizə kağız yazaram. Təvəqqe edürəm, kağız yazanda bir kinayə də yazmıyasınız. Çünki, çox vəqt kağızı mənsiz evə verürlər, Hüseyn açub bacısınə oxuyur. Genə Allahdən özimizə səbr istəməkdən səvay bir çarəmiz yoxdur. Uşaqlar hamusi səlamətdürlər. Və sizə dua göndərürlər. Cəhan nənəyə deyin ki, bayramdan üç gün sonrə Tükəzban də, Səltənət də, Fatimə də və mən də Ağdamdə olacağız.

Baqi vəssəlam.
Müxlisi-şoma Əbdürrəhim.




*Əbdürrəhim bəy Haqverdiyevin avtoqrafı. ƏYİ. Fond 9, s/v 53.*